**“Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə**

“Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli 795 nömrəli Fərmanının və “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi haqqında 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanının 5-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. “Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin:

2.1. 278-ci və 281-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxılmasını Elektroenergetika və enerji səmərəliliyi şöbəsi və İqtisadiyyat şöbəsi;

2.2. 279-cu, 280-ci və 282-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxılmasını Neft-qaz şöbəsi, Elektroenergetika və enerji səmərəliliyi şöbəsi və İqtisadiyyat şöbəsi;

2.3. 542-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxılmasını Neft-qaz şöbəsi və İqtisadiyyat şöbəsi;

2.4. 457-ci maddəsində nəzərdə tutulmuş qiymətli metalların və qiymətli daşların hasilatı sahəsində qiymətli metalların və qiymətli daşların uçotu, saxlanılması və mühafizəsi qaydalarının pozulması ilə əlaqədar inzibati xətalar haqqında işlərə baxılmasını İqtisadiyyat şöbəsi təmin etsin.

3. Neft-qaz şöbəsi, Elektroenergetika və enerji səmərəliliyi şöbəsi və İqtisadiyyat şöbəsinə tapşırılsın:

3.1. inzibati xətalar haqqında işlərə baxılarkən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin, o cümlədən 18-ci və 54-cü maddələrinin tələbləri nəzərə alınsın;

3.2. baxılmış inzibati xətalar haqqında işlərin nəticələri haqqında rüblük statistik hesabatları növbəti rübün birinci ayının 5-dək Daxili nəzarət şöbəsinə təqdim edilsin.

4. Azərbaycan Respublikasının Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi inzibati xətalar haqqında işlər üzrə protokolları Agentliyin Hüquq şöbəsinin rəyləri ilə birlikdə nazirliyə təqdim edilməsini təmin etsin.

5. “Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Energetika Nazirliyinin 2017-ci il 15 mart tarixli 8 nömrəli əmri ləğv edilsin.

6. Elektron idarəetmə sektoru bu əmrin və “Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan

vəzifəli şəxslərin Siyahısı”nın nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

7. Ümumi şöbə bu əmrin surətinin nazirliyin aparatının aidiyyəti struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.

8. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Nazir** **Pərviz Şahbazov**

Azərbaycan Respublikası
Energetika Nazirliyinin 2019-cu il
“__” _________ tarixli ___
nömrəli Əmri ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikasının Energetika Nazirliyi adından inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin**
**SİYAHISI**

1. Nazir;
2. Nazir müavinləri;
3. Aparat rəhbəri;
4. Aparat rəhbərinin müavinləri;
5. Neft-qaz şöbəsinin müdiri, müdir müavinləri, sektor müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi;
6. Elektroenergetika və enerji səmərəliliyi şöbəsinin müdiri, müdir müavinləri, sektor müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi;
7. İqtisadiyyat şöbəsinin müdiri, müdir müavini, baş məsləhətçisi, böyük məsləhətçisi.